# Akademik Tarih ve Düşünce Dergisi

Published by https://dergipark.org.tr/tr/pub/atdd

İlkbahar 2022/9-1 https://doi.org/10.46868/atdd.224

## Azərbaycanın Şuşa şəhəri tarixi xəritələrdə (1802-1901-ci illər)

**Elnur Nəciyev*[*]***
**ORCID: 0000-0002-3351-4425**

**Günay Nəciyeva[*]**
**ORCID: 0000-0002-6031-2327**

**Xülasə**

Qarabağ Azərbaycanın ən qədim tarixi vilayətlərindən biridir. Ümumiyyətlə, Qarabağ (onun həm aran, həm dağlıq hissələri) özünün bütün əvvəlki tarixi dövrlərində Azərbaycanın vahid təbii-coğrafi regionu kimi iqtisadi və siyasi inkişafına, oxşar adət-ənənələrinə, həyat tərzinə və məişətinə görə bir-birini tamamlayan tarixi vilayət olmuşdur. Şuşa da öz növbəsində bu tarixi vilayətin ən mühüm mərkəzidir. Təqdim etdiyimiz məqalədə Qarabağın mərkəzi olan Şuşa şəhərinin tarixini 1802-1901-ci illərdə çap edilən xəritələr əsasında tədqiq etməyə çalışmışıq. Bildiyimiz kimi Şuşa şəhəri 1752-ci ildə bina edildiyi gündən Qarabağın inzibati-siyasi və mədəni mərkəzi olmuşdur. Aparılan tədqiqatlar sübut edir ki, Şuşa şəhərinin əsl sakinləri tarix boyu Azərbaycan türkləri olub. Qarabağın mərkəzi olan Şuşanın tarixi Azərbaycan şəhəri olması da heç bir şübhə doğurmur. Bununla belə şəhərin adının ermənilərin təhrif etdiyi kimi Şuşi deyil, tarixi mənbələrdə, o cümlədən də xəritələrdə Şuşa olmasını bir daha əyani şəkildə göstərmək baxımından təqdim etdiyimiz xəritələr mühüm əhəmiyyət kəsb edir.

**Açar sözlər:** Azərbaycan, Qarabağ, Şuşa, Rusiya imperiyası.

**Gönderme Tarihi: 20/01/2022** **Kabul Tarihi:20/03/2022**

[*] *AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu "Azərbaycan tarixi demoqrafiyası" şöbəsinin sabiq doktorantı, Bakı-Azerbaycan,elnurneciyev@gmail.com*

[*] *AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu "Azərbaycanın orta əsrlər tarixi" şöbəsinin doktorantı,Bakı-Azerbaycan, neciyevagunay9@gmail.com*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz***:
Nəciyev, E., Nəciyeva, G., ''Azərbaycanın Şuşa şəhəri tarixi xəritələrdə (1802-1901-ci illər)'', *Akademik Tarih ve Düşünce Dergisi*, C. 9, S. 1, 2022, ss.290-303.

# Shusha city of Azerbaijan on historical maps (1802-1901)

**Elnur Najiyev** [*]
**ORCID: 0000-0002-3351-4425**

**Günay Najiyeva** [*]
**ORCID: 0000-0002-6031-2327**

**Abstract**

Garabagh is one of the ancient historic provinces of Azerbaijan. In all the previous historical periods, Garabagh (its plain and mountainous parts) was an indivisable natural-geographic region of Azerbaijan, and it supplemented Azerbaijan as a historical district with its economic and political development, similar traditions, life style and social conditions. Shusha, in turn, is the most important center of this historical region. In the article, we tried to study the history of the city of Shusha, the center of Garabagh on the basis of maps published in 1802-1901. As we know, Shusha has been the administrative-political and cultural center of Garabagh since its construction in 1752. The rich music culture of the Azerbaijani people has been formed in this city. Research proves that the real inhabitants of Shusha have always been Azerbaijani Turks. There is no doubt that Shusha, the center of Garabagh, is a historical city of Azerbaijan. However, the maps we present are important in terms of showing more clearly that the name of the city is Shusha in historical sources, including maps, and not Shushi, as distorted by the Armenians.

**Keywords**: Azerbaijan, Garabagh, Shusha, Russian Empire.

**Received Date: 20/01/2022** **Accepted Date: 20/03/2022**

---

[*] *Ex-PhD student, Azerbaijan National Academy of Sciences, History Institute, Department of "Historical demography of Azerbaijan", Baku -Azerbaijan, elnurneciyev@gmail.com*

[*] *PhD student, Azerbaijan National Academy of Sciences, History Institute, Department of "Medieval History of Azerbaijan", Baku-Azerbaijan, neciyevagunay9@gmail.com*

***You can refer to this article as follows:***

Najiyev, E., Najiyeva, G., ‘’Azərbaycanın Şuşa şəhəri tarixi xəritələrdə (1802-1901-ci illər)’’, *Academic Journal of History and Idea,* Vol. 9, Issue 1, 2022, pp.290-303.

# Город Шуша Азербайджана на исторических картах (1802-1901 гг.)

**Эльнур Наджиев** *
**ORCID: 0000-0002-3351-4425**

**Гюнай Наджиева** *
**ORCID: 0000-0002-6031-2327**

**Резюме**

Карабах – одна из древних исторических провинций Азербайджана. Во все предыдущие исторические периоды Карабах (его равнинная и горная части) был неделимой природно-географической областью Азербайджана и дополнял Азербайджан как исторический район своим экономическим и политическим развитием, схожими традициями, образом жизни и социальными условиями. Шуша, в свою очередь, является важнейшим центром этого исторического региона. В статье мы попытались изучить историю города Шуша, центра Карабаха, на основе карт, изданных в 1802-1901 гг. Как известно, Шуша является административно-политическим и культурным центром Карабаха с момента его основания в 1752 году. В этом городе сформировалась богатая музыкальная культура азербайджанского народа. Исследования доказывают, что настоящими жителями Шуша всегда были азербайджанские тюрки. Нет сомнения, что Шуша, центр Карабаха, является историческим городом Азербайджана. Однако представляемые нами карты важны с точки зрения того, чтобы яснее показать, что название города в исторических источниках, в том числе и на картах, - Шуша, а не Шуши, как искажено армянами.

**Ключевые слова:** Азербайджан, Карабах, Шуша, Российская империя.

**Получено: 20/01/2022** **Принято: 20/03/2022**

---

*Экс-докторант, Национальная Академия Наук Азербайджана, Институт Истории, Отдел «Историческая демография Азербайджана», Баку -Азербайджан, elnurneciyev@gmail.com*

*Докторант, Национальная Академия Наук Азербайджана, Институт Истории, Отдел «История средних веков Азербайджана», Баку -Азербайджан, neciyevagunay9@gmail.com*

***Ссылка на статью:***
Najiyev, E., Najiyeva, G., ‘’Azərbaycanın Şuşa şəhəri tarixi xəritələrdə (1802-1901-ci illər)’’, *академическая история и мысль*, 9-1, 2022, сс.290-303.

## Giriş

Şuşa Azərbaycan mədəniyyətinin parlaq rəmzlərindən biridir. Şuşa şəhəri 1988-1994-cü illərdə Qarabağda Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının rəmzinə çevrilmişdi. 2020-ci il 8 noyabr tarixində Şuşanın azad edilməsi isə bu dəfə Qarabağın mərkəzi olan bu tarixi şəhəri Azərbaycanın zəfər rəmzinə çevirdi. Əbəs yerə Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" sərəncama əsasən Zəfər günü məhz Şuşanın azad edildiyi günə təsis edilmədi. 2022-ci il yanvar ayının 5-də Azərbaycan Respublikasında 2022-ci ilin “Şuşa İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncam imzalaması Şuşanın Azərbaycan üçün əhəmiyyətini bir daha təsdiq etdi. Həmin sərəncamda da qeyd edildiyi kimi Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.[1] Bu şəhərin tarixinin tədqiqi istiqamətində, xüsusilə müstəqillik illərində qiymətli əsərlər qələmə alınıb. Lakin bu əsərlərdə yeganə çatışmayan nüans Şuşa şəhərinin tarixi xəritələrdə necə öz əksini tapmasına diqqət edilməməsidir. Tarixşünaslığımızdakı bu boşluğu qələmə alacağımız məqalədə qismən də olsa doldurmağa çalışacağıq.

### 1-Şuşa şəhəri 1802-1901-ci illərə aid tarixi xəritələrdə

İlk növbədə qeyd edək ki, Şuşa şəhərinin adına təsadüf etdiyimiz ilkin xəritələrdən biri 1802-ci ildə Yohan Kristof Matias Reyneke tərəfindən hazırlanan “Qafqazda ərazilərin xəritəsi”dir. (Bax: Xəritə 1). Bu xəritə Marburq Universitetinin professoru, tarixçi Rommel Ditrix Kristof Fonun (1781-1859) 1808-ci ildə çapdan çıxan “Die Völker des Caucasus nach den Berichten der Reisebeschreiber” (Səyyah məlumatlarına görə Qafqaz xalqları) əsəri üçün tərtib edilmişdi.[2]

---

[1] “Azərbaycan Respublikasında 2022-ci ilin “Şuşa İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı”. İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 5 yanvar 2022-ci il. URL: https://president.az/az/articles/view/55197 (03.02.2022)

[2] Dietrich Christoph von Rommel, *Die Völker des Caucasus nach den Berichten der Reisebeschreiber*. Im Verlage des Landes-Industrie-Comptoirs, Weimar 1808, 102 p. (Əlavələr bölməsində) .

Qeyd edək ki, həmin əsər də tariximiz üçün dəyərli mənbədir. Qafqaz tarixinə əlavə kimi linqvistika və etnoqrafiya arxivindən əldə edilən materiallar əsasında tərtib edilmişdir. Bu əsərə daxil olan 12 fəsildə Qafqaz xalqları adı altında ümumiyyətlə ermənilərin adı qeyd edilmir və əsərin sonunda "tataren" adlı XII fəsildə türkmanlar (Truchmenische), noqaylar və kumıklar kimi türk xalqları təqdim edilir. Bu əsərdə öz əksini tapan xəritədə Azərbaycanın tarixi Qarabağ ərazisi Sicasenne (Sakasena), Schuscha (Şuşa) adları ilə də qeyd olunub. Çox güman ki Sicasenne ifadəsi Sakasena adlı əyalət anlamında istifadə edilib. Bu da türk tayfaları olan sakların adı ilə bağlıdır. Müəllifin sakları xatırlaması Rommelin əsərində antik müəlliflərin əsərlərinə edilən müraciətlərlə bağlıdır.




*Xəritə 1. Reyneke Y.K.M., Qafqazda ərazilərin xəritəsindən fraqment, Veymar, 1802.*

Diqqəti cəlb edən digər maraqlı xəritə yəhudi əsilli kartoqraf, qravür Aaron Erousmitin ingilis diplomatı Ser Con Malkolmun 1821-ci ildə nəşr olunan "Persiya tarixi" adlı kitabı üçün 1815-ci ildə hazırladığı "Persiyanın və ona qonşu ərazilərin xəritəsi"dir.[3] Həmin xəritə Londonda çap edilib. Xəritədə Qarabağın adı ilə yanaşı Şuşa (Sheshah) və Bayat qalasının (Bait) da adı qeydiyyata alınmışdır (Bax: Xəritə 2).

[3] Aaron Arrowsmith, *Map of Persia and adjacent countries, for Sir John Malcolm's History of Persia,* I. Murray, London 1815.




*Xəritə 2. Erousmit A., Ser Con Malkolmun "Persiya tarixi" kitabı üçün Persiyanın və ona qonşu ərazilərin xəritəsindən fraqment, London, 1815.*

Tədqiq etdiyimiz xəritələrdən bir digəri də 1823-cü ildə "Rusiya imperiyasının atlası"na daxil edilən və podpolkovnik V.P.Pyadışevin müəllifi olduğu "Gürcüstanın ümumi xəritəsi"dir.[4] (Bax: Xəritə 3) Bu xəritədə Qarabağ xanlığı da əks olunmuşdur. Xəritə Sankt-Peterburqda nəşr edilib. Xəritədə verilmiş yer-yurd adları Qarabağın yerli əhalisinin ermənilər deyil, Azərbaycan türkləri olduğunu təsdiq edir. Çünki xəritədə Qarabağda Şahbulaq (Chakh Boulak), Əsgəran Xocalı (Askeran Godjalu), Qarakənd (Karakent), Ağoğlan (Akhouglan), Çanaqçı (Tchinakhtchi), Bayat qalası (Baiat raze), Qubadlı (Koubat) kimi toponimlər qeydiyyata alınmışdır. Eləcə də Şuşa şəhərinin adı fransızca Choucha kimi də qeyd edilib. Qeyd edək ki, Qarabağ xanlığı məhz 1823-cü ildə ləğv edilmiş və Rusiya imperiyasının əyalətinə çevrilmişdir.

[4] Vasiliy Petroviç Pyadışev, *Geografiçeskiy Atlas Rossiyskoy İmperii, tsarstva Polskoqo i Velikoqo Knyajestva Finlyandskoqo: geoqrafiçeskaya karta*, Voenno-topoqrafiçeskoe depo, Sankt-Peterburq 1827, №45.




*Xəritə 3. Pyadışev V.P., Gürcüstanın ümumi xəritəsindən fraqment, SPb., 1827.*

1835-ci ildə Sankt-Peterburqda hərbi tipoqrafik depoda çap edilən "Rusiya imperiyasının atlası" da Şuşanın tarixinin xəritələrlə tədqiqi baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd edək ki, 51 quberniya, 4 vilayət, Polşa çarlığı və Finlandiya knyazlığının xəritəsindən ibarət bu atlasa daxil edilən "İrəvan vilayətinin Rusiyaya daxil edilməsi ilə birlikdə Gürcüstanın xəritəsi" adlı xəritədə Qarabağ xanlığı və mərkəzi Şuşa şəhəri qeyd olunub.[5] Bu xəritədə də Şuşa ilə yanaşı Şahbulaq, Ağcabədi, Ağoğlan, Çanaxçı kimi Qarabağdakı yer-yurd adları aydın oxunur (Bax: Xəritə 4).

[5] *Atlas Rossiyskoy İmperii, soderjaşşiy v sebe 51 quberniyu, 4 oblasti, tsarstva Polskoqo i Knyajestvo Finlyandskoe,* Voenno-topoqrafiçeskoe depo, Sankt-Peterburq 1835, s. 66.




*Xəritə 4. İrəvan vilayətinin Rusiyaya daxil edilməsi ilə birlikdə Gürcüstanın xəritəsindən fraqment. SPb., 1835.*

1847-ci ildə Qaqarin Qriqori Qriqoryeviç Parisdə və Ernest Stakelberqin izahları ilə çap etdirdiyi "Le Caucase pittoresque" adlı əsərində illüstrasiyalarla yanaşı Qafqazın xəritəsini[6] də təqdim edir. Bu xəritənin maraqlı cəhəti Qarabağın (Karabakh) adı üzərindən Azərbaycanın qərb bölgəsinin Şamaxı (Chemakha) da adlandırılmasıdır. Qarabağın mərkəzi Şuşa şəhəri isə xəritədə fransızca Choucha kimi qeydiyyata alınmışdır (Bax: Xəritə 5).




*Xəritə 5. Qaqarin, Q.Q., Qafqazın xəritəsindən fraqment, Paris, 1847.*

Yeqor Zamıslovskinin litoqrafiyasında 1887-ci ildə Sankt-Peterburqda çap edilən "Rus tarixi üzrə tədris atlası" adlı atlasda tədqiq etdiyimiz problemlə bağlı bir neçə maraqlı xəritə

[6] Grégoire Gagarin, *Le Caucase pittoresque dessiné d'après nature par le Prince Gregoire*, Plon frères, Paris 1847, 22, [65] p., LXXX pl. (82 pl.), 1 carte.

var. O xəritələrdən birində Çar Rusiyasının II Yekaterina dövründəki sərhədləri təsvir olunub.[7] Xəritədə Şuşa şəhəri də öz əksini tapıb.




*Xəritə 6. Zamıslovski, Y., Rusiya II Yekaterinanın hakimiyyəti illərində xəritəsindən fraqment, SPb, 1887.*

Ümumiyyətlə Qafqaz regionunun da təsvir olunduğu xəritədə Azərbaycanın şimalındakı xanlıqlar deyil, bəzi Azərbaycan şəhərlərinin adları qeyd olunub (Bax: Xəritə 6). Eyni atlasa daxil edilən “XIX əsrdə Rusiyanın xəritəsi” adlı xəritədə[8] isə Qarabağın adı ilə yanaşı Şahbulaq, Əsgəran, Şuşa kimi tarixi yurd yerlərimizin də adları qeydiyyata alınıb (Bax: Xəritə 7).




*Xəritə 7. Zamıslovski, Y., XIX əsrdə Rusiyanın xəritəsindən fraqment, SPb, 1887.*

[7] Yeqor Zamıslovski, *Uçebnıy atlas Russkoy istorii,* izadanie Kartoqrafiçeskoqo zavedeniya A.İlina, SPb 1887, Karta №7.
[8] Y.Zamıslovski, *a.g.e.,* Harita №8.

1885-1896-cı illərdə “Rusiyanın Böyük Pyotrdan bizim günlərə qədər apardığı müharibələrin xülasəsi” adlı 4 hissədən və 7 kitabdan ibarət əsər işıq üzü görmüşdür.[9] Bu əsərin maraqlı cəhəti 4-cü hissənin 1-ci kitabının Nikolay Suxotinin tərtibatçılığı ilə 1898-ci ildə nəşr edilən çertyojlar atlasından[10] ibarət olmasıdır. Həmin əsərdə 70-ci səhifədə müəllifi K.Kononov olan “1826-1828-ci illər Persiya (İran) müharibələrinin təsvirinə dair strateji xəritə” öz əksini tapmışdır. Bu xəritədə ayrı-ayrı Azərbaycan xanlıqları xanlıq və əyalətlər kimi təsvir edilmişdir. Xəritədə Qarabağ və mərkəzi Şuşa şəhəri aydın nəzərə çarpır (Bax: Xəritə 8).




*Xəritə 8. Kononov K., 1826-1828-ci illər Persiya (İran) müharibələrinin təsvirinə dair strateji xəritəsindən fraqment, SPb, 1898.*

1900-cü illərdə Şuşanın Qarabağın mərkəzi kimi qeydiyyata alındığı digər bir xəritə Tiflisdə K.Tomsunun xromolitoqrafiyasında çap edilib.[11] Xəritədə Qafqaz Arxeoqrafiya Komissiyasının qeydlərinə əsasən 1801-ci ilə qədər Qafqazdakı siyasi vəziyyət təsvir olunub.

[9] *Obzor voyn Rosii ot Petra Velikoqo do naşix dney: (posobie dlya izuçeniya voennoy istorii v voennıx uçilişşax)*, Sankt-Peterburq 1885-1896.

[10] Nikolay Suxotin, *Obzor voyn Rosii ot Petra Velikoqo do naşix dney: (posobie dlya izuçeniya voennoy istorii v voennıx uçilişşax)* / sost. Dubrovinım i Kuropatkinım, Qudim-Levkoviçem, Suxotinım i Puzırevskim; pod obş. red. Leera, Sankt-Peterburq Ç. 4. Kn. 1: [atlas çertejey], 1898, s.70.

[11] “Karta Kavkaza s pokazaniem politiçeskoqo yeqo sostoyaniya do 1801 q.” URL: https://mus-col.com/collection/printed-products/map/7646/ (03.02.2022).

Qravürün müəllifi Q.Disterdikdir. Bu xəritədə Azərbaycanın şimal torpaqlarının hüdudları aydın şəkildə təsvir olunub (Bax: Xəritə 9).




*Xəritə 9. Disterdik Q., 1801-ci ilə qədər Qafqazdakı siyasi vəziyyət. 1900-cü illər.*

1901-ci ildə Tiflisdə litoqraf K.Mesxiyeva tərəfindən tərtib edilmiş “Carte du Caucase. Étendue des industries de la laine”, yəni “Qafqazın xəritəsi. Yun sənayelərinin yayılma arealı” xəritəsində[12] Şuşa eyni zamanda fransızca Choucha kimi qeyd olunub. Xəritədən məlum olur ki, Şuşada yundan parça istehsalı və xalça toxunulmasında geniş istifadə edilirdi (Bax: Xəritə 10).




*Xəritə 10. Mesxiyeva K., Qafqazın xəritəsi. Yun sənayelərinin yayılma arealı xəritəsindən fraqment. 1901*

[12] “KK 1901 220(49) Kustarnıe promıslı şerst”. URL: https://ourbaku.com/index.php/:KK_1901 _220(49)_ (03.02.2022).

Şuşa şəhəri ilə bağlı nəzərdən keçirdiyimiz xəritələr təbii ki tədqiq etdiyimiz dövrlə bağlı xəritələrin sadəcə bir qismidir. Bu xəritələrin tədqiqata cəlb olunması tarixşünaslığımızda bir çox problemlərin həllində köməkçi vəsait ola bilər.

**Nəticə**

Aparılan tədqiqat onu deməyə əsas verir ki, Şuşa şəhərinin tarixinə dair xəritələrin tədqiqi bütövlükdə xəritələrlə tariximizin tədqiqində yeni bir istiqamətdir. Tarixi xəritələrə mənbə kimi müraciət edərək Azərbaycan tarixinin tədqiqi tarixşünaslığımızı daha da zənginləşdirə bilər.

Şuşa şəhərinin tarixi ilə bağlı tədqiqata cəlb etdiyimiz xəritələr sübut edir ki, tarixi Azərbaycan şəhəri olan Şuşa nə Qarabağ xanlığı Rusiya imperiyası tərəfindən işğal ediləndən əvvəl, nə də Qarabağ xanlığının Rusiyaya tabe edilib xanlığın ləğvindən sonra heç vaxt öz tarixi adını itirməmişdir. Tədqiqata cəlb etdiyimiz xəritələrdə xüsusilə Qarabağ ərazisində qeydiyyata alınan yer-yurd adlarının Azərbaycan türkcəsində olması bu ərazilərin ermənilərə qətiyyən aidiyyatı olmadığını göstərir. Hətta ermənilərin Cənubi Qafqaza köçürülməsinə qədər olan vəziyyəti əks etdirən 1802-ci il xəritəsinin daxil edildiyi əsərdən də aydın olduğu kimi Qafqazda erməni adında yerli bir xalqdan söhbət belə getmirdi.

**İstifadə edilmiş ədəbiyyat**

ARROWSMITH, A., *Map of Persia and adjacent countries, for Sir John Malcolm's History of Persia*, I. Murray, London 1815.

*Atlas Rossiyskoy İmperii, soderjaşşiy v sebe 51 quberniyu, 4 oblasti, tsarstva Polskoqo i Knyajestvo Finlyandskoe.* Voenno-topoqrafiçeskoe depo, Sankt-Peterburq 1835.

“Azərbaycan Respublikasında 2022-ci ilin “Şuşa İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı”, İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 5 yanvar 2022-ci il. URL: https://president.az/az/articles/view/55197 (03.02.2022).

GAGARİN, G., *Le Caucase pittoresque dessiné d'après nature par le Prince Gregoire*, Plon frères, Paris 1847, 22, [65] p., LXXX pl. (82 pl.), 1 carte.

“Karta Kavkaza s pokazaniem politiçeskoqo yeqo sostoyaniya do 1801 q.” URL: https://mus-col.com/collection/printed-products/map/7646/ (03.02.2022).

“KK 1901 220(49) Kustarnıe promıslı şerst”. URL: https://ourbaku.com/index.php/Файл:КК_1901_220(49)_Кустарные_промыслы_шерсть.jpg (03.02.2022).

*Obzor voyn Rosii ot Petra Velikoqo do naşix dney: (posobie dlya izuçeniya voennoy istorii v voennıx uçilişşax)*, Sankt-Peterburq 1885-1896.

PYADIŞEV, V.P., *Geografiçeskiy Atlas Rossiyskoy İmperii, tsarstva Polskoqo i Velikoqo Knyajestva Finlyandskoqo: geoqrafiçeskaya karta*, Voenno-topoqrafiçeskoe depo, Sankt-Peterburq 1827.

ROMMEL, D. C., *Die Völker des Caucasus nach den Berichten der Reisebeschreiber*. Im Verlage des Landes-Industrie-Comptoirs, Weimar 1808.

SUXOTİN, N., *Obzor voyn Rosii ot Petra Velikoqo do naşix dney: (posobie dlya izuçeniya voennoy istorii v voennıx uçilişşax)* / sost. Dubrovinım i Kuropatkinım, Qudim-Levkoviçem, Suxotinım i Puzırevskim; pod obş. red. Leera, Sankt-Peterburq Ç. 4. Kn. 1: [atlas çertejey], 1898, 110 L. sxem.

ZAMISLOVSKİ, Y. *Uçebnıy atlas Russkoy istorii*, izadanie Kartoqrafiçeskoqo zavedeniya A.İlina, SPb 1887, 22 L.